## Avropa ekspertlərinin Bakı görüşü

*Borcların idarə edilməsi üzrə mütəxəssislər IOTA-nın İşçi Qrupunun (IOTA Katibliyinin) ilk iclasında iştirak etmişlər*

*Tədbir barədə IOTA-nın rəsmi saytında yerləşdirilmiş məqalənin tərcüməsini diqqətinizə təqdim edirik.*

IOTA-ya üzv olan vergi administrasiyalarının vergi borclarının idarə edilməsi, toplanılması və qaytarılması üzrə aparıcı ekspertlərindən təşkil edilmiş «Borcların idarə edilməsi» üzrə İşçi Qrupunun iclası 2012-ci il mart ayının 6-da Bakı şəhərində açıq elan edilmişdir.

Avropadaxili Vergi Administrasiyaların Təşkilatının (IOTA) Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaxından əməkdaşlığı ilə təşkil etdiyi və iki gün yarım davam etmiş bu tədbir IOTA-nın borcların idarə olunması sahəsində təcrübələri və bilikləri, aşağıda göstərilənlər nəzərə alınmaqla, bir yerə cəmləşdirmək səylərinin tərkib hissəsidir:

· Böyük məbləğli vergi borclarının səmərəli şəkildə idarə etməklə cari əməletmə üzrə risklərin azaldılması üçün uzunmuddətli və davamlı strategiyaların işlənilib hazırlanması;

· Vergi borclarının alınması proseslərinin optimallaşdırılması məqsədilə IOTA vergi administrasiyalarının həyata keçirdikləri hüquqi, inzibati və əməliyyat tədbirlərinin genişləndirilməsi; və

· Borcların məcburi qaytarılması metodlarının və üsullarının səmərəliliyinin qiymətləndirilməsi, beləliklə də vergi borclarını müəyyənləşdirmək və almaq, eləcə də vergi ödəyicilərinin ödəmə problemlərini daha yaxşı həll etmək və könüllü əməletməni təşviq etmək sahəsində IOTA üzvlərinin qabiliyyətlərini artırmağa kömək olunması.

İşçi Qrupun birinci iclasında səlahiyyətlərin müzakirə edilməsi və yekun formul qəbul edilməsi, eləcə də məqsəd və vəzifələrin, üstünlük verilən fəaliyyət sahələrinin, təşkilati aspektlərin, həmçinin gələcək görüşlərin əsas mövzularının müəyyənləşdirilməsi üçün IOTA-nın 20 üzv ölkəsindən 22 nümayəndə iştirak edirdi.

Bundan əlavə, İşçi Qrupun üzvləri sahələr üzrə qrupların üzərində işləməli olduqları mövzuları da nəzərdən keçirmişlər. Sahələr üzrə qruplar İşçi Qrupun fəaliyyətinin bir hissəsi kimi təşkil olunacaq və onların qarşısındakı ümumi vəzifə borcların idarə olunması ilə bağlı spesifik və texniki məsələləri yoxlayaraq bu barədə hesabat hazırlamaq üçün peşəkar təcrübələri bir araya gətirmək olacaq.

Vergilər nazirinin müavini cənab Sahib Ələkbərov yığıncağı açaraq nümayəndələri salamlamış, mövcud iqtisadi mühitdə vergi borclarının səmərəli və effektiv idarə olunması üçün tətbiq edilən ən uğurlu yanaşma metodları barədə fikir mübadiləsi aparmağın və ətraflı məlumat əldə etməyin əhəmiyyətini qeyd etmişdir.

Vergi borclarının alınması idarəsinin rəisi cənab İlkin Vəliyevin giriş təqdimatı yığıncağın açılış sessiyasının gündəliyinə daxil idi. Təqdimat xüsusi olaraq vergi borclarının müəyyənləşdirilməsinə, vergi borclarının məcburi alınması prosedurlarının xüsusiyyətlərinə, borcların idarə olunması üçün istifadə edilən əməletmə modeli, borclu vergi ödəyicilərinin likvidlik və əməletmə səviyyələrinin qiymətləndirmək üçün ilkin müdaxiləyə əsaslanan vergi borclarının idarə olunması strategiyasının əsas elementlərinə, eləcə də iri məbləğli borclara daha çox diqqətin yönəldilməsinə istiqamətləndirilmişdir. Cənab İ.Vəliyev, həmçinin, borcların yığılması prosesində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin üstünlüklərini də qeyd etmişdir. O, öz təqdimatını borcların alınması təcrübəsindən əldə edilmiş praktika, eləcə də bu sahədə qarşılaşdıqları problemləri xüsusi olaraq, hər hansı aktivlə təmin edilməyən borcların idarə edilməsi, aktivlərin faktiki sahiblərinin müəyyən edilməsi, eləcə də uzun sürən məhkəmə prosedurları ilə bağlı problemləri diqqətə çatdırmaqla yekunlaşdırmışdır.

Yığcam məlumat sessiyası İşçi Qrupun üzvlərinə vergi borclarının alınması üzrə milli qanunvericilikdə və inzibatçılıqda aparılan son işlərlə, borcların idarə olunması və yığılmasının səmərəliliyini artırmaq üçün yaradılmış yeni strukturlarla, eləcə də vergi borclarının səmərəli idarə edilməsi üçün istifadə olunan informasiya texnologiyaları alətləri və s. ilə tanış olmaq imkanı vermişdir.

İşçi Qrupun üzvlərinin başlıca məsələləri əhatə edən silsilə təqdimatları Belçikanın, Fransanın, İtaliyanın, Rusiya Federasiyasının vergi administrasiyalarında mövcud olan borcların idarə edilməsi funksiyasının strukturu və təşkilati məsələləri barədə ümumi tanışlıq yaratmışdır. Vergi administrasiyalarının vergi borclarının idarə edilməsinə yanaşması ilə tanışlıq da çox faydalı olmuşdur. Həmin yanaşmalar bunları əhatə edir: 1) ayrı-ayrı borclular olduğu halda müxtəlif növ təmayüllərin (birgə və ayrı, mütənasib) olması (İspaniya); 2) borcların idarələrarası qaydada yığılması (Danimarka); 3) yığım agentləri ilə əməkdaşlığın faydası (İtaliya); 4) yığım strategiyasının əsas xüsusiyyətləri (Fransa); və 5) vergi yığımının təkmilləşdirilməsi üçün davranış nəzəriyyəsindən istifadə (Böyük Britaniya).

İşçi Qrupun üzvləri özlərinin gələcək fəaliyyətlərini borcların idarə olunmasının aşağıda göstərilən texniki məsələlərə yönəltməyə ciddi maraq göstərdiklərini ifadə etmişlər:

· Könüllü əməletmə və vergi ödəyicisi xidmətləri;
· Borcların yığılması siyasətlərində və prosedurlarında riskin idarə edilməsi;
· Vergi borclarının toplanılması və qaytarılması prosesləri və tədbirləri;
· Səmərəli qabaqlayıcı tədbirlərin görülməsi və könüllü əməletməyə dəstək verilməsi;
· Vergi administrasiyasında borcların səmərəli idarə olunmasının strukturu, səlahiyyətləri və mövqeyi;
· Avtomatik fəaliyyətlər.

Kiçik qruplarda aparılan müzakirələrin nəticəsi olaraq yığıncaq iştirakçıları sahələr üzrə qrupların nəzərdən keçirməli və hesabat verməli oldacaqları başlıca mövzuları müəyyənləşdirmişlər.

İşçi Qrupun üzvləri, Rəhbərlik Qrupunun rolunu da müzakirə etmişlər. Bu orqanın fəaliyyəti İşçi Qrupa məsləhət və təlimat vermək olacaq, İşçi Qrupun öz işini planlaşdırması və əlaqələndirməsi barədə məsləhət verəcək, sahələr üzrə qrupların müvafiq qaydada fəaliyyət göstərməsinə nəzarət edəcək və bununla İşçi Qrupun fəaliyyətlərinin həyata keçirilməsində yüksək keyfiyyətli nəticələrin əldə olunmasına təminat yaradacaq.

İclasın sonunda razılaşdırılmışdır ki, IOTA Katibliyi yazılı prosedur qəbul etsin və orada hər bir iştirakçı vergi administrasiyası işləmək istədiyi üç mövzudan birini seçməyə dəvət olunsun. Bütün bunlar həyata keçirildikdən sonra sahələr üzrə yeni qruplar IOTA-nın İcraiyyə Şurası tərəfindən təsdiqlənəcək perspektiv planlardakı məqsəd və vəzifələrə uyğun olaraq öz fəaliyyətlərinə başlayacaqlar.

Bütün nümayəndələr tədbirin təşkil edilməsindən və risklərin idarə olunması sahəsində ixtisaslaşmış vəzifəli şəxslərin yeni yaradılmış, iştirakçı vergi administrasiyaları arasında vergi borclarının yığılmasının və qaytarılmasının yeni və innovativ iş metodları barədə müzakirə aparmağa şərait yaradan şəbəkəsinə qoşulmaqdan son dərəcə məmnun qaldıqlarını ifadə etmişlər.

IOTA-nın «Borcların idarə edilməsi» İşçi Qrupunun növbəti yığıncağı 2012-ci il 3-5 oktyabr tarixlərində Belçikanın Brüqqe şəhərində keçiriləcək.

IOTA bütün təqdimatçılara və vergi administrasiyalarında borcların idarə edilməsi fəaliyyətlərinin başlıca məsələləri ilə bağlı canlı müzakirələrdə fəal çıxış etmiş iştirakçılara; böyük köməyinə və qonaqpərvərliyinə görə Azərbaycan Respublikası Vergilər Nazirliyində çalışan həmkarlarımıza dərin təşəkkürünü bildirir - Azərbaycan Respublikası Vergilər Nazirliyi tədbirin keçirilməsini əla şəraitlə təmin etmiş, eləcə də Azərbaycanın tarixinə və mədəniyyətinə nəzər salmağa imkan yaradan maraqlı sosial proqram hazırlamışdı.